# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №22 (62) • 31.10.2011


AzadliqRadiosu.az


AzadlıqRadiosu canlı - indi bütün mobil telefonlarda... səh.2

Kristofer Ştrasserə yenə viza verilmədi səh.3

Evini söküb yerində şadlıq sarayı tikiblər səh.4

Evə qayıtmayan uşaqlar səh.6

В чем замкнется Евразийский Союз? səh.7

Bu qış Bakı necə isinəcək? səh.10

Taksi sürücüləri niyə narahatdır? səh.11

11 dildə danışan Cavid... səh.15


## Daşqın bölgəsində yeni tikilən evlərin tavanı damır...



- Evlərin döşəmə və pilləkənləri də dağılır
- Sakinlər tikintiyə ayrılan pulların mənimsənildiyini iddia edir
- FHN yoxlamalara başlayıb

səh.5

## BMT Təhlükəsizlik Şurasına üzvlük Azərbaycana nə verəcək?

Azərbaycan BMT Təhlükəsizlik Şurasının üzvlük səsverməsində əsas rəqibi Sloveniyanı 40 səs geridə qoyub və Şuraya ikiillik qeyri-daimi üzv seçilib. Vaşinqtonda Beynəlxalq Strateji Araşdırmalar Mərkəzinin eksperti Bülənt Əlirza müstəqilliyin 20-ci ilində Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi ciddi uğurdur, amma o qədər də şişirtməmək lazımdır, çünki çətinliklər də çox olacaq.

səh.8

Mətbuat sorğusu





Jurnalist Əvəz Zeynallı həbs edildi səh.2

Əli Əhmədov İranın təhdidlərinə cavab verdi səh.3

Kasıb fəhlə Zülfüqarlı qardaşlarının iki zavoduna necə şərik oldu? səh.9

# Əvəz Zeynallı həbs edildi



Əvəz Zeynallı

**«Xural» qəzetinin baş redaktoru Əvəz Zeynallı oktyabrın 28-də axşam saat 6 radələrində naməlum şəxslər tərəfindən aparılıb. Bu barədə AzadlıqRadiosuna həmin ərəfədə «Xural» qəzetinin əməkdaşı və baş redaktorun həyat yoldaşı Məlahət Zeynallı məlumat vermişdi: «Bu gün axşam saat 18-də o, «Kanal 13»-də qonaq idi. Kanalın qarşısına gəlib və verilişin aparıcısından gedəcəyi otağın nömrəsini soruşub. Onun gəlmədiyini görən aparıcı 5-10 dəqiqədən sonra ona zəng edib. Əvəz bildirib ki, naməlum insanlar onu aparırlar».**

Məlahət Zeynallı baş redaktorun mobil telefonuna zəng çatmadığını və hazırda harada olması barədə məlumatlarının olmadığını söyləmişdi. Daha sonra bəlli oldu ki, Əvəz Zeynallı Baş Prokuror Yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsindədir. Gecə saatlarında Nəsimi Rayon Məhkəməsinin qərarı ilə "Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallı haqqında üçaylıq həbs qərarı çıxarıldı. Vəkili Elçin Sadıqovun bildirdiyinə görə, Əvəz Zeynallıdan millət vəkili Gülər Əhmədova şikayət edib: *"Millət vəkili oktyabrın 19-da verdiyi şikayətdə qeyd edib ki, Əvəz Zeynallı onun haqqında ifşaedici materialların qəzetində yayılmaması üçün ondan 10 min manat tələb edib. Əvəz Zeynallı bu ittihamı rədd edir".*

Bu ittihamla bağlı Gülər Əhmədovanın özü ilə əlaqə saxlamaq mümkün olmadı. Bu ittiham sübuta yetirilsə, Əvəz Zeynallı 10 ildən 12 ilə qədər azadlıqdan məhrum edilə bilər.

Həmin gecə saatlarında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin əməkdaşları «Xural» qəzetinin Arif Hacıyev küçəsi, 1926-cı məhəllədə yerləşən redaksiyasında axtarış aparıblar. Jurnalistlər içəri buraxılmayıb. Ofisdən doqquz qutuda sənədlər və bir kompyuter yaddaşı götürülüb. İdarənin əməkdaşları baş redaktorun qayınatasının evində də axtarış aparıblar.

Baş Prokurorluq da «Xural» qəzetinin baş redaktorunun həbsi ilə bağlı məlumat yayıb. Məlumatda Əvəz Zeynallının deputat Gülər Əhmədovanın şikayəti əsasında həbs edildiyi bildirilir. "Baş Prokuror Yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsində Əvəz Zeynallı barəsində Cinayət Məcəlləsinin 311.3.3 və 311.3.4-cü (rüşvət tələb etmə) maddələri ilə cinayət işi başlanıb. İstintaq davam etdirilir» -, deyə məlumatda bildirilir.

Xatırladaq ki, «Xural» qəzeti 2010-cu ildə Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Prezident Yanında KİV-ə Dəstək Fondunun rəhbəri Vüqar Səfərli və başqaları tərəfindən məhkəməyə verilmiş və müxtəlif miqdarda cərimələnmişdi. Təkzib verilsə də, iddianın cərimə ilə bağlı tərəfi həll olunmamış qalıb. Bu səbəbdən Nərimanov Rayon məhkəməsinin icraçıları tərəfindən oktyabrın 19-da qəzetin əmlakı müsadirə edilib.

Azərbaycanda bir çox ictimai təşkilatlar və siyasi partiyalar baş redaktorun həbsini pisləyən və əsassız sayan bəyanatla çıxış ediblər. Hazırda Əvəz Zeynallı Kürdəxanı istintaq təcridxanasındadır. Oktyabrın 29-da vəkil Elçin Sadıqov onunla görüşüb.

***Şahnaz Bəylərqızı***

# AzadlıqRadiosu canlı - indi bütün mobil telefonlarda...




## Əziz "Azadlıq" Sevərlər!

Sizə AzadlıqRadiosunu «Nokia» mobil telefonlarında necə canlı dinləməklə bağlı məlumat vermişdik. Bildiririk ki, indi bu xidmət digər model telefonlarda («Nokia»nın adi modellərində, «Samsung» və «SonyEricsson») da mümkün oldu. Təbii ki, ilkin şərt olaraq mobil telefonların GPRS və ya Wi Fi internet şəbəkələrini dəstəkləməlidir. Aşağıdakı sadə prosedurları etsəniz, günün 24 saatı radiomuzu canlı dinləyə biləcəksiniz. Qeyd edək ki, bütün proses 1-2 dəqiqədən çox çəkmir.

Mobil telefonlar üçün internet radio proqramını aşağıdakı ünvandan endirin.

***http://azadlig.info/radio.zip***

Proqramı zip-dən azad edib - radio.jar faylını USB və ya Bluetooth vasitəsilə mobil telefonunuza yerləşdirib yükləyin. Bu zaman telefonunuzda aşağıdakı nişanlı proqram peyda olacaq.




Onu işə salın. Aşağıdakı şəkildəki proqram açılacaq.




Play-i basın, bir neçə saniyədən sonra AzadlıqRadiosunu canlı dinləyə bilərsiniz. Proqramı idarə eləmək çox sadədir.

Qeyd edək ki, internet radio proqramını siz internetdən birbaşa telefona da yükləyə bilərsiniz. Bunun üçün aşağıdakı ünvana mobil telefonunuzdan daxil olun:

***http://azadlig.info/radio.jar***

Əgər sizin mobiliniz «Android», «Apple» və ya «BlackBerry» sistemli telefondursa, nəzərinizə çatdırırıq ki, bu modellərin özünün internet radio sistemləri vardır.

GPRS mobil internetdən istifadə edirsinizsə sizə ucuz başa gəlməsi üçün yaxşı olar ki, qabaqcadan GPRS trafik paketi alasınız («Azadlıq»ın dalğası 32 Kbit/san ilə yayılır).

## Sizə uğurlar!

***Qeyd: Radiomuzu canlı olaraq internetdə dinləməklə bağlı sualınız varsa, efir@azadliqradiosu.az ünvanına e-mail, Facebook-da mesaj yaza və ya 436-77-40 (daxili 1355) nömrəsinə zəng edə bilərsiniz!***

# Kristof Ştrasserə yenə viza verilmədi


Kristof Ştrasser

**Azərbaycanın Almaniyadakı səfirliyi Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Azərbaycanda siyasi məhbuslar üzrə məruzəçisi Kristof Ştrasserə viza verməyib. Bu barədə AzadlıqRadiosuna səfirliyin birinci katibi Nüsrət Süleymanov məlumat verib. O deyir ki, K.Ştrasser səfirliyə 10-15 gün əvvəl müraciət edib: «Prosedura belədir ki, Ştrasserin öz mandatına uyğun Azərbaycana gəlməsi üçün AŞPA-dakı Azərbaycan nümayəndə heyətinin rəhbəri ona dəvət məktubu verməlidir. Yalnız həmin dəvətdən sonra ona viza verilə bilər. Amma cənab Ştrasser viza üçün müraciət edəndə, belə bir dəvət məktubunu səfirliyə təqdim etməyib. Bu səbəbdən də səfirlik ona viza verməyib».**

N.Süleymanov deyir ki, K.Ştrasserin Almaniya vətəndaşı, Bundestaqın üzvü kimi Azərbaycana səfər etməsində hər hansı problem yoxdur: «Problem yalnız onun mandatı ilə bağlıdır».

Məruzəçi K.Ştrasser noyabrın 4-nə kimi Azərbaycana gəlmək istəyirdi. Azərbaycan hakimiyyəti K.Ştrasserə viza verilməməyini onun mandatı ilə izah edir. Rəsmilər bildirirlər ki, Avropa Şurasında siyasi məhbus meyarı müəyyən olunmayıb, bu səbəbdən də onun səfəri mənasız xarakter daşıyır.

***Maarif Çingizoğlu***

# Əli Əhmədov İranın təhdidlərinə cavab verdi


Əli Əhmədov

***«İran tərəfindən Azərbaycana qarşı hər hansı təhdidlərin olmasını, Azərbaycan dövlətçiliyinə qarşı hörmətsizliyin ifadə edilməsini hər bir azərbaycanlı qətiyyətlə pisləyir».*** **Bunu hakim Yeni Azərbaycan Partiyasının icra katibi Əli Əhmədov İranda Azərbaycan əleyhinə beynəlxalq konfransın keçirilməsinə münasibət bildirərkən deyib.**

Ə.Əhmədov İranda belə bir konfransın təşkil edilməsinin mahiyyət etibarilə düzgün olmadığını vurğulayıb: *«Orada səsləndirilən bəzi fikirləri, təhdidləri Azərbaycanın daxili işlərinə qarışmaq kimi qiymətləndirmək olar. Bu isə yolverilməzdir».*

# Avropa Birliyi «Transxəzər» layihəsi üzrə Azərbaycanla danışıqlara başlayıb

*Avropa Birliyi Azərbaycan və Türkmənistanla «Transxəzər» qaz boru kəmərinin hüquqi bazası üzrə danışıqlara başlayıb. Azərbaycan Xarici İşlər nazirinin müavini Mahmud Məmmədquliyev bu çərçivədə ilk görüşün Brüsseldə keçirildiyini deyib:* «İlk danışıqlar oktyabrın ikinci ongünlüyündə Brüsseldə olub. Danışıqlarda Avropa Birliyi, Azərbaycan və Türkmənistan nümayəndələri iştirak edib».

Sentyabrın 7-də Avropa Birliyi «Transxəzər» layihəsi ilə bağlı Azərbaycan və Türkmənistanla danışıqlar aparmaq üçün Avropa Komissiyasına mandat verib. «Transxəzər» qaz kəməri Xəzərin Azərbaycan və Türkmənistan sahillərini birləşdirməlidir. Layihənin dəyəri 7.9 milyard avro qiymətləndirilir. Sentyabrın 13-də Rusiya XİN bəyanatla çıxış edərək bildirib ki, Xəzərin statusunu 5 Xəzəryanı ölkə müəyyənləşdirir.

# AzadliqFM-3D – AzadlıqRadiosunun yeni layihəsi




**Sentyabrın 29-da saat 23:00-dan AzadlıqRadiosunun yeni layihəsi - AzadliqFM - 3D proqramı işinə başlayıb. Niyə FM? Çünki proqramın əsasında Facebook Məkanında baş verənlər durur.**

Niyə 3D? Çünki proqramın yayımı eyni vaxtda 3 müxtəlif formada həyata keçirilir. Ona AzadlıqRadiosunun efirində qulaq asmaq, AzadlıqTW-də baxmaq olar və nəhayət, AzadlıqRadiosunun Facebook səhifəsindəki forumunda iştirak etmək mümkündür.

# Bəşər Əsəd Qərbi zəlzələylə hədələyib



Suriya prezidenti Bəşər Əsəd deyib ki, əgər Qərb ölkənin daxili işlərinə müdaxilə etsə zəlzələ olacaq və Yaxın şərqdə onlarla yeni Əfqanıstan yaranacaq. O bunu Böyük Britaniyanın "Sunday Telegraph" qəzetinə müsahibəsində deyib. Bu arada verilən məlumata görə, Suriyanın Homs şəhərində ordu birləşmələri ilə üsyançıların tərəfinə keçmiş hərbçilər arasında baş vermiş toqquşmada 20 əsgər ölüb, 50-dən çoxu isə yaralanıb. Müşahidəçilər həmçinin şəhərdə azı 12 dinc sakinin snayper və iriçaplı silahlarla öldürüldüyünü deyirlər.

# Evini söküb yerində şadlıq sarayı tikiblər


Foto: Arxiv

**Şəmkir rayon sakini Sahib Kərimov AzadlıqRadiosunun «Qaynar xətt»inə şikayət edib ki, ondan xəbərsiz evini sökərək yerində şadlıq evi tikiblər. Deyir 2004-cü ildə ailəsi ilə Rusiyaya çörəkpulu qazanmağa gedəndə ağlına da gətirmirmiş ki, bir gün geri qayıdıb evinin yerində şadlıq evi tikildiyini görəcək. Ona məlum olub ki, «Morul» şadlıq evini Fəzail Quliyev adlı sahibkar tikdirib:**

**«MƏHKƏMƏ HEÇ NƏYİ NƏZƏRƏ ALMADI»**

- Məhkəmədə iddia qaldırdıqda evin hüquqi sənədlərini, daşınmaz əmlakın arayışlarını, bir də Şəmkirin baş arxitektorunun həqiqətən də evimin uçurularaq yerində qeyri-yaşayış binası tikilməsinə dair arayışını təqdim etdim. Məhkəmə nə bu hüquqi sənədləri, nə qohumlarımın, qonşularımın şahid kimi verdikləri ifadələri nəzərə aldı. Onlarda məhkəməyə təsdiqləmişdilər ki, həqiqətən də mənim evimi traktorla uçurublar, yerində şadlıq evi tikiblər. Məhkəmə qərar verdi ki, guya tikilən şadlıq evinin mənim evimin sahəsinə aidiyyəti yoxdur. Beləliklə də mən yaşayış yerimdən məhrum edildim.

**- Evinizin sökülməsindən 5 ildən artıq vaxt keçib. Ancaq siz məhkəməyə 2 il əvvəl müraciət etmisiniz. Niyə belə gec?**

- Mən evimin söküldüyünü eşitdiyim vaxt avtomobil qəzasına düşdüm, onurğam qırılmışdı, uzun müddət müalicə olundum. Sonra da ağ ciyərimdən cərrahiyyə olundum, bir müddət də başım ona qarışdı. Bakıya qayıdanda gördüm evim yerində yoxdur, artıq şadlıq evi tikilib.

**«QAPILARDA QALMIŞIQ»**

**- İndi harada yaşayırsınız?**

- 18 aydır mən qardaşımın evində qalıram. Qızımla həyat yoldaşım isə qayınımın evində yaşayırlar. Qapılarda qalmışıq.

Şəmkir Rayon Məhkəməsində Sahib Kərimovun iddiası əsasında başlanmış məhkəmə prosesində «Morul» şadlıq evinin sahibi Fəzail Quliyevin nümayəndəsi Səadət Cəbrayılova dindirilib. O deyib ki, Fəzail Quliyev şadlıq evini Sahib Kərimovun evinin yerində yox, evdən kənarda tikib….

**ALİ MƏHKƏMƏ NƏ DEYƏCƏK?**

Şəmkir Rayon Məhkəməsi Sahib Kərimovun iddiasını təmin etməyib. Onun rayon məhkəməsinin qətnaməsindən verdiyi apelyasiya şikayətinə Gəncə Apelyasiya Məhkəməsində baxılıb. Sahib Kərimovun qonşuları Əmirəhməd Sarıyev, Tahirə Quliyeva, Narıngül Muradova, Fazilə Rüstəmzadə məhkəməyə ərizə göndəriblər ki, onlar Sahib Kərimovun salamat vəziyyətdə olan evinin traktorla uçurulmasının və yerində «Morul» şadlıq evinin tikilməsinin şahidi olublar. Apelyasiya Məhkəməsi Sahib Kərimovun şikayətini təmin etməyib.

İndi Sahib Kərimov Ali Məhkəməyə kasasiya şikayəti verib. Şikayətə dekabrın əvvəlində baxılacaq.

***Esmira Cavadova***

# Şikayətiniz varmı?

**"Qaynar xətt" dinləyici şikayətləri əsasında hazırlanan verilişdir. Sizin də şikayətiniz və ya məlumatınız varsa, qaynar xəttə zəng edin. Telefon 436 77 41, yaxud AzadliqRadiosu.az saytına daxil olub əlaqə saxlayın.**

**Problemlərinizi bütün ölkə eşitsin!**




# Şikayətçi: «Polis müstəntiqi cinayəti ört-basdır edib»

**İsmayıllı rayon sakini Heybət Balayev AzadlıqRadiosunun «Qaynar xətt»inə şikayət edib ki, qızı Aynur Faktıyeva ötən il dekabrın 3-də yaşadığı mənzildə keçmiş həyat yoldaşı və sonuncunun qohumları tərəfindən döyülüb. Nəticədə onun bətnindəki 8 aylıq körpəsi ölüb.**

**ANA BƏTNİNDƏKİ KÖRPƏ NECƏ ÖLÜB?**

Heybət Balayev:

- «Gecə qızımın evinə hücum edərək evin qapısını sındırıblar, içəri daxil olaraq evdə tək olan hamilə qızımı döyüblər, nəticədə bətnindəki uşaq ölüb. Bizə zəng vurdular, bu barədə dedilər, mən də 102 xidmətinə zəng etdim, hətta hadisə yerinə polis də gəlmişdi. Qızımın keçmiş həyat yoldaşını aparıb bir neçə gün polisdə saxlayandan sonra buraxdılar. Bizdə olan məlumata görə, onun polisdə işləyən qohumları var və o, həmin qohumlarının köməkliyi ilə cinayətin ört-basdır edilməsinə nail olub».

Heybət Balayevin sözlərinə görə, müstəntiq cinayət işinin rədd olunmasına dair qərar çıxarıb. Qərarını da belə əsaslandırıb ki, Aynur Faktıyeva döyülmə nəticəsində yox, ehtiyatsızlıqdan yıxılaraq bətnindəki körpəsini itirib.

**«ONUN ŞİKAYƏTLƏRİ TƏSDİQİNİ TAPMAYIB»**

Daxili İşlər Nazirliyi mətbuat xidmətinin şöbə rəisi Orxan Mansurzadə isə deyir ki, Heybət Balayevin bu məsələ ilə əlaqədər DİN-ə ünvanladığı müraciət aidiyyəti xidmətlər tərəfindən dəfələrlə yoxlanılıb və onun həm müstəntiqə, həm də keçmiş kürəkəninə yönəlmiş ittihamların heç biri bu zaman öz təsdiqini tapmayıb.

Hüquqşünas Namizəd Səfərov deyir ki, əgər Heybət Balayev müstəntiqin cinayət işinin başlanmasının rədd edilməsinə dair çıxardığı qərarla razılaşmırsa, qərardan məhkəməyə şikayət verə bilər.

# Daşqın bölgəsində yeni tikilən evlərin tavanı damır...

## *Döşəmələr və pilləkənlərsə dağılır*


Dağılan tavan

**«Bax buna, gör hansı vəziyyətdədir? Bu nədir? Bunun günahını dövlətin üzərinə qoymaq olmaz. Yerdə işləri gördürənlərin səhlənkarlığı üzündən belə bir vəziyyət yaranıb». Bu bizi bir il əvvəl İmişli rayonunda salınan Allahmədətli qəsəbəsindəki evlərin problemləri ilə tanış edən qəsəbə sakini, Yeni Azərbaycan Partiyasının üzvü Xanoğlan Aslanovdur. Oktyabrın 26-sı, yağmurlu havada adıçəkilən qəsəbəyə çatanda, jurnalist gəldiyini eşidib-bilən hamı evlərinin vəziyyətini göstərmək istəyirdi. Kimi eyvanın döşəməsinin çökdüyünü, kimi də otaqların tavanından suyun damdığını göstərirdi:**

- Bizim evə də gəlin baxın! Yarıya qədər ev zay olub.

**- Çoxdan damır?**

- Hə....

**«HARA GEDİB AYRILAN PULLAR?»**

*Qəsəbə sakinlərinin deməsinə görə, onlara bildirilib ki, 2-3 otaqlı evlərin biri təqribən 35-50 min manata başa gəlib. Amma Xanoğlan Aslanov bu qədər vəsaitin hamısının evlərə xərclənməsinə şübhə ilə yanaşır:*

- Bura göndərilən material hara gedib? Bu işlərə lazımi büdcə ayrılıb. Rayon rəhbərliyi hara baxıb? Sizinlə birgə gördüyümüz acınacaqlı vəziyyət YAP-ın üzvü kimi məni çox narahat edir. Bunun hamısı qurban olsun prezidentimizə. Sadəcə, biz nə vaxta qədər bir-birimizi aldadacağıq?

**DAMAN YERLƏRİN EYBİ VEDRƏ, LƏYƏNLƏ ÖRTÜLÜR**

Yağış başlayan kimi adamlar dam örtüyünün su axan yerlərinin altına vedrə-ləyən qoymaqla yağış suyunun birbaşa evə tökülməsinin qarşısını alırlar. Amma bu da evə bir neçə yerdən su damanda effekli olur. Yağış çox yerdən damanda isə vəziyyəti seyr etməkdən başqa çarələri qalmır.

**KEYFİYYƏTSİZ İŞ ADAMLARI ŞİKƏST EDİB**


Bilqeyis nənə

Qəsəbənin ən qocaman sakini, yaşı 80-i haqlayan Bilqeyis nənəgildə olanda, o, yorğan-döşəkdə yatırdı. Dediyindən aydın oldu ki, 10 gün əvvəl həyətə düşmək istəyəndə yıxılıb. Amma o, yıxılmasına səbəb qocalığı yox, eyvanın döşəməsindəki kafellərin, onun dili ilə desək, kaşının keyfiyyətsiz vurulmasını göstərir:

*- Elə ilk gündən dammağa başlayıb! Allah prezidentimizi var eləsin, onu üstümüzdən əskik eləməsin. Amma bu belə də olmaz axı...*

Qəsəbə sakini Adilə Aslanova da eyvanın çökməsi səbəbindən yıxılıb. Amma o, həmin vaxt qucağındakı 6 aylıq Ayanın xəsarət almamasına şükür edir.

Qəsəbədə olduğumuz zaman icra nümayəndəliyinin də deyilənlərə münasibətini öyrənmək istədik. Amma xeyli axtarsaq da, nümayəndəlikdən kimsəni tapa bilmədik.

İcra nümayəndəliyinin qonşuluğundakı mədəniyyət evində də olduq. Mənzillərdə olduğu kimi, mədəniyyət evinin də tavan və divarlarından su axırdı. Mədəniyyət evinin çöl divarında isə prezident İlham Əliyevin hansısa görüşünü əks etdirən böyük foto və ondan gətirilən sitat bu vəziyyətlə əsl təzad təşkil edirdi. Həmin sitat belə idi:

**«BİZİM ƏSAS İSTƏYİMİZ ODUR Kİ, İNSANLAR RAHAT VƏ TƏHLÜKƏSİZLİK ŞƏRAİTDƏ YAŞASINLAR»**

Qəsəbə sakinləri yeni yaşayış məntəqəsinin açılışı zamanı prezidentə yalan məlumatlar verildiyini də bildirdilər. Sakinlərin dediyinə görə, prezidentə sutəmizləyici qurğuların tam işlək olduğu, bütün evlərə mebel verildiyi deyilsə də, əslində sutəmizləyici qurğular bir gün də işləməyib. Prezidentin qəsəbəyə gəlişinə görə cəmi iki evə mebel verilibmiş. Amma həmin mebellər də prezident qəsəbəni tərk edən kimi tez də adamların əlindən alınıb.

**FHN ARAŞDIRMALARA BAŞLAYIB**

Fövqəladə Hallar Nazirliyində Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin rəis müavini Elxan Əsədov isə deyir ki, yeni qəsəbədəki problemlər barədə bir neçə gün əvvəl məlumat alıblar və əraziyə yoxlama göndərilib. Bir evin tikintisinə nə qədər vəsaitin ayrılmasına gəldikdə, Elxan Əsədov əlinin altında sənədlər olmadığı üçün bu suala dəqiq cavab verə bilməyəcəyini bildirdi.

***Maarif Çingizoğlu***

# Azərbaycanda ana və uşaq ölümü BMT sənədində

**Dünya əhalisinin sayının 7 milyarda çatması ilə əlaqədar BMT-nin Əhali Fondu «Dünya əhalisinin durumu-2011» («State of world population-2011») adlı hesabat açıqlayıb. Hesabatda ana və uşaq ölümü hallarına da ətraflı nəzər salınıb. Sənədə əsasən, Azərbaycanda 5 yaşına çatmamış uşaqlar arasında hər 1000 nəfərə 33 ölüm düşür. Hər 100 000 doğuş zamanı isə 38 ana ölür. Azərbaycanda hər 1000 doğuşdan 42-si 15-19 yaşlı ananın payına düşür.**

Ölkədə doğuşların 88%-i peşəkar tibbi personal tərəfindən qəbul edildiyi halda, qalan 12% ev şəraitində və peşəkar tibbi yardım olmadan baş verir. BMT ekspertləri bildirirlər ki, Azərbaycanda uşaqların 95-97%-i ibtidai və orta təhsil almaq imkanına malikdir. Savadlılıq dərəcəsi isə 100%-dir. Azərbaycan əhalisi 9.3 milyondur, 4.6 milyonu kişi, 4.7 milyonu isə qadındır. Şəhər əhalisi 52% təşkil edir.

**apa**

# Evə qayıtmayan uşaqlar

**«Bu saat mən polisdən gəlirəm. Uşağın şəkillərini verdim. Söz veriblər ki, yaxın vaxtlarda tapacaqlar. Bu uşaq 3 bacının bir qardaşıdır». Bakı sakini Sahib Babayevin 15 yaşlı oğlu oktyabrın 20-də evdən çıxıb və neçə gündür ki, onun harada olması ilə bağlı xəbər yoxdur. Atası bununla bağlı oktyabrın 24-də polisə müraciət edib. Hazırda o, axtarışdadır.**

**«BU MƏLUMATLAR DAXİLİ İSTİFADƏ ÜÇÜNDÜR»**

Azərbaycanda il ərzində nə qədər uşaq itir? Onların neçəsi tapılır? Tapılmayan uşaqların aqibəti necə olur? Daxili İşlər Nazirliyi mətbuat xidmətinin əməkdaşı Orxan Mansurzadə deyir ki, bu tip məlumatların ictimaiyyətə açıqlanması qanunla qadağandır: *« Belə məlumatlar yalnız daxili istifadə üçün nəzərdə tutulduğundan açıqlanmır».*


Bakıda dilənçi uşaqlar

**DÖVLƏT QURUMUNUN PROFİLİ**

Azərbaycanda uşaq hüquqlarının qorunmasını həyata keçirən dövlət qurumu Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsidir. Komitənin sektor müdiri Lətafət Tağızadə deyir ki, onlara, ümumiyyətlə, itkin düşən uşaqlarla bağlı müraciət daxil olmayıb. Bu sahənin araşdırılması isə onların profilinə aid deyil: *«Uşaqların itməsi kriminaldır, bu sahənin bizim komitəyə aidiyyəti yoxdur».*

İnsan Haqları üzrə Müvəkkil Elmira Süleymanova da Azərbaycanda itən uşaqlarla bağlı onlarda hər hansı məlumatın olmadığını deyir.

**O UŞAQLARIN BƏZİLƏRİ SANKİ YOXA ÇIXIR...**

Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansının milli koordinatoru Nabil Seyidov isə uşaqların itməsinə dair məlumatların ictimaiyyətə açıqlanması və ictimai təşkilatlarla əməkdaşlıq edilməsini zəruri sayır: «Statistika ilə bağlı məlumata, təəssüf ki, bizim də çıxışımız azdır. Amma 2010-cu ilin yanvar ayında DİN tərəfindən qeyd olunmuşdur ki, təkcə Bakı şəhərində 47 uşaq itib, onlardan 41-i tapılıb, 6-nın isə həmin dövrdə taleyi məlum deyil. Bundan başqa, bizim təşkilat son 6-7 ay ərzində parklarda, zirzəmilərdə, vağzallarda küçə uşaqları ilə



bağlı reydlər keçirir. Lakin bir müddət sonra o uşaqların bəziləri sanki yoxa çıxır, onlar barədə məlumatlar əldə edə bilmirik. Xüsusilə də bu uşaqlar heç bir yerdə qeydiyyata alınmırlar. Həmin uşaqlar insan alveri qurbanına çevrilməsi, orqanların transplantasiyası, cinayətlərə cəlb olunma baxımından çox böyük risk altındadırlar».

Nabil Seyidov dövlət uşaq müdafiə sistemini təkmilləşdirməyə, uşaq hüquqları və onların müdafiəsini həyata keçirən dövlət qurumlarını nəticəni yox, səbəbi aradan qaldırmağa çağırır. O, təklif edir ki, bütün - quru, hava, su sərhəd-keçid məntəqələrində uşaqların şəkilləri çəkilsin, çıxan uşaqların qayıdıb-qayıtmaması haqda məlumatlar toplansın, uşaqlar sərhədi hər iki valideynin notariusla təsdiqlənən icazəsi ilə keçsinlər. Nabil Seyidov deyir ki, azyaşlılarla işləyən komissiyaların, polis-uşaq inspektorlarının fəaliyyətini gücləndirməsinə ehtiyac var.

***Nüşabə Fətullayeva***

# «Heydər Əliyevi çox istədiyim üçün YAP üzvüyəm»

**Aktrisa Firəngiz Mütəllimovanın AzadlıqRadiosuna müsahibə verib. Söhbətin bir hissəsini təqdim edirik.**

**- Firəngiz xanım, bəzi sənət adamları siyasətə də meyil göstərirlər. Sizin belə bir meyiliniz yoxdur?**

- Yox, yox. Sadəcə olaraq, Heydər Əliyevi çox istədiyim, ondan da sənətimə diqqət gördüyüm üçün onun yaratdığı Yeni Azərbaycan Partiyasının üzvüyəm. Ancaq dövlət tədbirlərində iştirak edirəm. Dövlətin teatrında çalışıram. Mənim siyasətim teatrda rolumu düzgün oynamağımdır.

**- YAP-ın hansı rayon təşkilatının üzvüsünüz?**

- Bakının Yasamal rayonunun.

**- Bir vətəndaş kimi ürəyinizdən keçirmi ki, hansısa sosial problemi YAP-ın Yasamal rayon şöbəsinin iclasında qaldırasınız?**

- Açığı düşünmürəm. Son bir ildə sağlamlığımla məşğulam. Səhhətimdə problemlərim var, hələ ki, özümləyəm.

**SADƏCƏ, SƏNƏTKARA DİQQƏT**

**- Firəngiz xanım, bu günlərdə Müsavat Partiyasının 100 illiyi qeyd olundu, geniş səviyyədə keçirilməsinə şərait yaradılmadı, siz izləmədiz bu prosesi?**

- Yox, mən siyasətə qarışmıram. Hər halda ağır əməliyyat keçirəndə gözümü açıb başımın üstündə iqtidarı görmüşəm. Müxalifət mənə heç nə etməyib.

**- Siz müxalifətdən nəsə umursuzmu?**

- Yox, o da azərbaycanlıdır, mən də. Məsəl üçün dedim, mən heç nəyə qarışmıram, başımı aşağı salıb işimi görürəm. Aktyorun işi səhnədə roluyla sözünü deməkdir.


Aktrisa Firəngiz Mütəllimova

**- Sizcə, müxalifət nə etməlidir ki, onu etmir?**

- Heç nə. Sadəcə, sənətkara qarşı diqqətli olmalıdır, elə hamıda bizə qarşı diqqət olmalıdır.

**Aktrisa ilə geniş və maraqlı müsahibəni dinləmək üçün AzadliqRadiosu.az saytına daxil olun.**

# В чем замкнется Евразийский Союз?


Владимир Путин

**Продолжается обсуждения темы интеграции в Евразии в свете заявления в газете "Известия" премьер-министра России Владимира Путина вокруг идеи создания Евразийского Союза. Информагентство REGNUM приводит мнения азербайджанского и армянского экспертов о перспективах Евразийского союза, высказанные ими в проекте "Центральная Евразия":**

Заведующий отделом Института философии, социологии и права Национальной Академии наукАли Аббасов:

- Нужна ли вообще самой России интеграция на постсоветском пространстве? Жизненно необходима! Причем, как это следует из статьи В.Путина, даже страны вне постсоветского пространства вполне могут претендовать на членство в еще не рожденном Союзе. Продолжается выстраивание архитектуры новых центров многополярного мира, так что не только Россия, но и такие гиганты, как Китай и Индия, лишены будущего вне интеграционных систем, объединяющих множество государств, как минимум, на принципах территориальной близости. Однако, есть ли у России ресурсы для развития интеграции? Думается, что Евразийский Союз в лучшем случае замкнется в рамках тех постсоветских стран, которые и без этого союза готовы на умеренную интеграцию. Арабские революции и практика "управляемого хаоса" достаточно убедительные аргументы в пользу меньшего зла, каким представляется "союзная рука", протянутая им Москвой.

Доктор политических наук Артур Атанесян:

- Непосредственные страны-участницы Таможенного союза с Россией - Казахстан и Беларусь, по всей вероятности, в недалеком будущем будут испытывать внутриполитические проблемы, связанные с преемственностью президентской власти. По всей вероятности, кризис власти и внутриполитические пертурбации в этих странах сделают все остальные политические процессы, в том числе интеграционные, неактуальными. Предполагаемые же страны - новые участницы в евразийском интеграционном проекте Путина - Кыргызстан и Таджикистан, в силу своей экономической слабости, а в случае с Кыргызстаном - еще и внутриполитической нестабильности, могут своим участием в интеграционном проекте расшатать сам проект и внести нестабильность в ту же Россию. В свою очередь, Армения, как ближайший союзник России на Южном Кавказе, была бы отчасти рада интеграции в единое экономическое пространство с Россией и другими предполагаемыми странами, кроме Азербайджана, но не имеет с Россией или любым другим государством - предполагаемым участником интеграции общей границы, а также наращивает взаимоотношения с Европейским Союзом, в том числе экономические.

# НефтеФонду разрешили инвестировать в Россию и Турцию

Накануне президент Азербайджана Ильхам Алиев подписал указ, которым внесены поправки в правила хранения, размещения и управления валютными средствамиГоснефтефонда. соответствии с измененными правилами, средства инвестиционного портфеля Госнефтефонда, в котором аккумулируются доходы страны от нефти, отныне могут также размещаться в активах Турции и России.

Ранее средства фонда могли размещаться только в активы стран "большой семерки" и Евросоюза, а также в активы, номинированные в валютах стран с долгосрочным кредитным рейтингом не ниже "A" и "A2". В целом активы фонда, которые составляют часть стратегических валютных резервов страны, на сегодня превысили уже 34 млрд долларов.


Владимир Филат

# СМИ: Молдова извинилась перед Баку за продажу оружия Армении

**Во время Варшавского саммита Восточного партнерства в прошлом месяце премьер-министр Молдовы Владимир Филат извинился перед президентом Азербайджана Ильхамом Алиевым за поставку оружия в Армению, сообщают азербайджанские СМИ. анное заявление сделал 26 октября посол Молдовы в Азербайджане Игорь Бодю. Сообщается, что дипломат признал факт продажи Молдовой вооружения Армении на сумму $3 млн и назвал этот факт "неправильным политическим шагом".**

"Хотя, конечно, в отношении Армении нет международных санкций, запрещающих продажу ей вооружения. Азербайджан и Молдова имеют союзнические отношения. Оба государства являются членами ГУАМ, и мы надеемся, что этот факт не нанесет урона нашим отношениям. В Молдове уже созданы две комиссии - парламентская комиссия и комиссия Совета безопасности, которые занимаются расследованием данного инцидента. Это был неправильный политический шаг".

**На сайте РадиоАзадлыг - radioazadlyg.org:**

- **Полстраны в Баку?**
- **Свободный выбор умеренных исламистов**
- **Клинтон готова к контактам с террористами**
- **Медведев о "неплохих" отношениях Алиева с Саргсяном**
- **Ливия: после войны**
- **Трупный запах**

# Təhlükəsizlik Şurasına üzvlük Azərbaycana nə verəcək?


Bülənt Əlirza

**Azərbaycan BMT Təhlükəsizlik Şurasının üzvlük səsverməsində əsas rəqibi Sloveniyanı 40 səs geridə qoyub və Şuraya ikiillik qeyri-daimi üzv seçilib. Vaşinqtonda Beynəlxalq Strateji Araşdırmalar Mərkəzinin eksperti Bülənt Əlirza bununla bağlı suallarımızı cavablandırır.**

- Müstəqilliyin 20-ci ilində Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi iftixarvericidir. Bu, Azərbaycanın beynəlxalq səviyyədə nüfuzunu qaldıracaq. Adətən qonşularıyla ciddi problemləri olan ölkələr kənarda qalırlar. Həm də seçilmək üçün ciddi lobbiçilik etməyə ehtiyac var. Bu baxımdan ciddi uğurdur, amma o qədər də şişirtməmək lazımdır, çünki çətinliklər də çox olacaq.

**- Bu postda olmaq Azərbaycana hansı üstünlükləri verəcək?**

- Qeyri-daimi üzvlər Təhlükəsizlik Şurasındakı müzakirələr zamanı istədikləri vaxt söz alıb çıxış edə bilərlər. Qeyri-daimi üzv olmayanlar isə çıxış etmək üçün sədrə müraciət edib müəyyən prosedur keçməlidirlər. İndi Azərbaycan istədiyi mövzuya istədiyi vaxt münasibət bildirə biləcək.

Bundan başqa, qeyri-daimi üzvlər də daxil olmaqla 15 üzv ölkənin hər biri rotasiya qaydasında bir ay müddətinə Şuraya sədrlik edir. Sədr ölkə toplantının gündəliyini müəyyən edir, kimin çıxış edəcəyi barədə qərar verir. Bu baxımdan Azərbaycanın nüfuzu daha da artacaq.

*- Səsvermədə iştirak yəqin ki, Azərbaycanı həm də ölkələr arasında seçim etmək və bu ölkələrlə sonrakı münasibətlər baxımından çətinliyə salacaq...*

- Əlbəttə, belədir. İndiyə qədər Azərbaycan həmişə həm İsraillə, həm də Fələstinlə yaxşı münasibət saxlayıb. Yaxın günlərdə BMT-də Fələstinin dövlət kimi tanınması məsələsi gündəmə gələcək. Bu zaman Azərbaycan seçim qarşısında olacaq, o, mövqeyini bildirməlidir.

Ümumiyyətlə, Azərbaycan əvvəllər neytral qaldığı məsələlərdə indi mövqe bildirməli olacaq, bu da onun üçün bəzən mənfi, bəzən də müsbət nəticələnə bilər. Nəticədə Azərbaycan diplomatiyası həm çətin günlər yaşayacaq, həm də daha da aktivləşəcək.

Məsələn, keçən il İran məsələsi gündəmə gəlmişdi və ABŞ Türkiyənin İrana yeni embarqo qoyulması ilə bağlı təklifi dəstəkləməsini istəmişdi, amma Türkiyə buna razı olmamışdı. Bu da ABŞ-Türkiyə münasibətlərinə mənfi təsir etmişdi. Buna bənzər bir vəziyyət də qarşıdakı iki ildə Azərbaycan üçün yarana bilər.

**- Bu üzvlük Dağlıq Qarabağ münaqişəsinin həllinə hansısa bir təsir edə bilərmi?**

- Ciddi bir təsirin olacağına inanmıram. Çünki bu münaqişənin həllinə daha çox Rusiya və ABŞ təsir edə bilir. Amma dediyim kimi, Azərbaycanın sədrlik müddətində müzakirələrin gündəminə təsir etmək imkanı var və ümumiyyətlə, bu üzvlük onun beynəlxalq nüfuzunu artıracaq.

**- Bu üzvlük Azərbaycanda demokratik islahatlara hansısa təsir göstərə bilərmi?**

- İndiyə qədərki təcrübə göstərib ki, qeyri-daimi üzvlərə demokratiya ilə bağlı heç bir təzyiq edilmir. Onlar bu posta qeyri-demokratik gəlib, qeyri-demokratik gediblər. Amma bu üzvlük Azərbaycanın daxili siyasətini beynəlxalq gündəmə gətirəcək, beynəlxalq medianın diqqətini bu ölkəyə yönəldəcək. Bu da xüsusilə də Ərəb baharından sonra Azərbaycandakı demokratik qüvvələri həvəsləndirə bilər.

***Ülviyyə Əsədzadə***



# İlham Əliyev 9 ayın iqtisadi göstəricilərini açıqlayıb

**Azərbaycan prezidentinin sədrliyi ilə Nazirlər Kabinetinin 2011-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunan iclası keçirilib. İlham Əliyev deyib ki, bu ilin 9 ayında kənd təsərrüfatı istehsalı 7,6 faiz artıb. Bu dövrdə Azərbaycanın valyuta ehtiyatları 11 milyard dollar artaraq 40 milyard dolları ötüb. İ.Əliyev bildirib ki, ünvanlı sosial yardım proqramının icrası 113 min ailəni əhatə edir, bu təbəqədən olan hər ailəyə orta hesabla 130 dollar yardım verilir.**

Dövlət başçısı deyib ki, hazırda işsizlik 5,5 faizdir. Son 9 ayda ölkədə 74 min yeni iş yeri açılıb ki, onlardan 50 mini daimidir. Bununla da son 8 ildə Azərbaycanda açılan iş yerlərinin sayı 950 minə çatıb. İlham Əliyev bildirib ki, makroiqtisadi sabitlik qorunub saxlanılacaq.

*"Bu il əhalinin pul gəlirləri 19 faiz artıb və bu gəlirlər inflyasiyanı 2 dəfədən çox üstələyib".* Dövlət başçısı yaxın vaxtlarda Milli Məclisdə müzakirə ediləcək gələn ilin dövlət büdcəsinin investisiya və sosialyönümlü olmasının vacibliyini qeyd edib: *"Gələn il dövlət büdcəsinin xərcləri 22 milyard dollar, icmal büdcə isə 25 milyard dollar səviyyəsində olacaq".*

***APA***




Ən aktual, ən qaynar müzakirələr həftənin hər iş günü AzadlıqRadiosunun efirində. Saat 17-dən 19-dək. **AzadliqRadiosu.az** saytından verilişə canlı da baxa bilərsiniz. Verilişlərin səs arxivinə **AzadliqRadiosu.az** saytında sonradan da qulaq asa bilərsiniz.

**Veriliş zamanı suallarınızı verin:**
**SMS:** (+994 50 744 10 17)
**Telefon:** 436 – 77 - 41
**Elektron ünvan:** efir@azadliqradiosu.az

# Kasıb fəhlə Zülfüqarlı qardaşlarının iki zavoduna necə şərik oldu?



**Lerik rayonunun Ordahal kənd sakini, işsiz Gəray Məmmədov eyni zamanda zavod səhmdarıdır. 2006-cı il martın 30-da imzaladığı bir sənədə görə, o, Bakıdakı iki böyük zavodun, «Bakıelektroştamp» və «Bakıpoladtökmə» zavodlarında 80 faiz payına malikdir.**

Bu zavodlar hazırda Türkiyədə mühacir həyatı yaşayan Zülfüqarlı qardaşlarına məxsusdur. Zavodun sahiblərindən biri, qardaşların böyüyü Nurəddin Zülfüqarlının AzadlıqRadiosuna dediyinə görə, onlara məxsus əmlakın 80 faizi qardaşı Loğmanla həbsxanada olduqları müddətdə, 2006-cı ildə əllərindən zorla alınaraq həmin Gəray Məmmədova verilib.

**ZAVODDAN İMTİNA HARDA BAŞ VERİB?**

Gəray Məmmədovun özüylə telefon əlaqəsi saxlasaq da, bütün suallarımıza vəkilinin cavab verəcəyini bildirdi.

**-Gəray bəy, Zülfüqarlı qardaşlarına məxsus zavodun 80 faiz payı sizə verilib?**

-Bu barədə mənim vəkilimə Mahir zəng edib. ...bu nömrəyə zəng edin.

Mahir Ağayevə müraciət etdik. O, əvvəlcə bütün məsələlərə məhkəmədə cavab veriləcəyini desə də, sonradan bəzi məsələlərə aydınlıq gətirdi:

**- Mahir müəllim, Gəray Məmmədovun adına belə bir sənədləşmə olubmu?**

- Bəli, bəli, olub.

**- Özü də bu prosesdə iştirak edibmi?**

- Olub, əlbəttə, olub.

**- Sənədləşmə harda olub, məlumatlar var ki, həbsxanada olub...**

- Tamamilə yalan söhbətdir. Hansı dövlətdə görünüb ki, gedib həbsxanada alqı-satqı edəsən.

**- Onda Lerik rayonunda olub...**

- Yox, orda olmayıb...

**- Bəs harda olub?**

- Qiymətli Kağızlar Komitəsində.

**- Gəray Məmmədov özü o sənədlərə imza atıbmı həmin vaxt?**

- Bəli, o olub, sonra Zülfüqarlı qardaşlarından Loğman olub.

**- Siz də orda idinizmi?**

- Bəli.

**- Necə oldu ki, iki zavodun 80 faizinin həmin şəxsə verilməsi qərara alındı?**

- Məhkəməyə verilib, orda hər şeyə aydınlıq gətiriləcək.

**- Sizi kim məhkəməyə verib?**

- Zülfüqarlı qardaşları.

**- Mahir müəllim, zavodlar Gəray bəyə veriləndə Zülfüqarlı qardaşlarına bunun əvəzində pul verildimi?**

- Axı mən sizə dedim, hər şey məhkəmədə bəlli olacaq.

**«KƏRƏM HƏSƏNOV DEDİ Kİ, ZAVODLARI VERMƏSƏNİZ, ÇOX PİS OLACAQ»**

Loğman Zülfüqarlının qardaşı Baxış isə bütün proseslərdə özünün iştirak etdiyini deyir. O, Mahir Ağayevin qardaşı ilə bağlı dediklərini təkzib edir, sənədlərin imzalanma vaxtı qardaşı Loğmanın həbsxanada olduğunu bildirir. Onun sözlərinə görə, 2005-ci ildə zavodları başqasına verməkdən imtina edəndən sonra qardaşları Loğman və Nurəddin həbs edilib. Bundan sonra da ailəyə təzyiqlər dayanmayıb.

Baxış Zülfüqarlının sözlərinə görə, hətta qardaşların həbsxanada öldürülə biləcəyi ilə bağlı onlara xəbərdarlıq edilib. Baxış Zülfüqarlı deyir ki, zavodla bağlı məsələni onlara ilk dəfə Kərəm Həsənov dediyindən o, bundan sonra bir daha Komitə sədrinin yanına gedib:

«Bir- iki dəfə gedəndən sonra o məni qəbul elədi. Dedi «Baxış, siz evdə də məsləhətləşin, çünki burda vəziyyət başqa cürdür, siz o zavodları verməyə razılaşmasanız, çox pis olacaq». Dedi «bu göstəriş yuxarıdan gəlib», amma o, ad çəkmədi. Bildirdi ki, zavodları verməsəniz, qardaşlarınızı buraxmayacaqlar, hətta sizi də həbs edəcəklər».

**«BİZƏ 1 MANAT DA VERİLMƏDİ»**

Baxış Zülfüqarlı deyir ki, bundan sonra onlar zavodun 80 faizlik payından imtina etməyə razı olublar. Və 2006-cı il martın 30-da o, həbsxanada qardaşı Nurəddinlə görüşüb. Zavodla bağlı müəyyən sənədləri imzalamaq üçün Nurəddin Zülfüqarlı həbsxana rəisi və müstəntiqin iştirakı ilə ona etibarnamə verib:

«Sonra bizi "Nizami" kinoteatrının yanında bir ticarət mərkəzinə gətirdilər. Gəray Məmmədov da orda idi. Üst-başından gördüm ki, bir fəhlə adamdır. Mən fürsət tapıb onunla bir- iki kəlmə danışdım, dedim zavodları sənin adına keçiririk, gördüm bu adam heç bir şeyi bilmir, heç savadı da buna imkan vermir. Hadisələrdən də xəbərsiz olduğunu bildirdi».

Baxış Zülfüqarlı deyir ki, zavodun 80 faizlik payı həmin adamın adına dövr edilsə də, onlara bir manat da pul verilməyib. Onun sözlərinə görə, həmin sənədin imzalanmasından sonra qardaşları həbsxanadan buraxılıb. Bir müddət sonra isə məhkəmə onlara bəraət verib.

**«KƏRƏM HƏSƏNOVUN ÖZƏL ZAVODLARLA NƏ İŞİ VAR?»**

Əmlak Məsələləri Dövlət Komitəsinin mətbuat xidmətinin rəhbəri Qulu Xəlilov isə Zülfüqarlı qardaşlarının dediklərini həmin şəxslərin subyektiv fikri sayır:

- Bu, onların subyektiv fikridir. Onlar özəl zavodlar idi. Kərəm Həsənov sədr adamdır, onun özəl zavodlarla nə işi var?

<u>- Amma onlar deyir danışıqları Kərəm Həsənovla aparıblar.</u>

- Bu, onların subyektiv fikridir. Nə bilim, bizim xəbərimiz yoxdur.

Zavodları əllərindən alınan Zülfüqarlı qardaşları hazırda Türkiyədə yaşayırlar. Son aylarda isə qardaşlara məxsus üçüncü zavodun, Xəzər-Boru zavodunun da fəaliyyəti dayandırılıb.

***Maarif Çingizoğlu***




Dəyərli oxucular! AzadlıqRadiosunun korrupsiya halları ilə bağlı maraqlı araşdırmalarını, xəbər və reportajlarını AzadlıqRadiosu.az saytında **"Korrupsiometr"** bölümündə oxuyun. Səs yazılarını dinləyin, videolara baxın. <u>Məsələn:</u>

**• Təhsil Nazirliyi 77 məktəbin tikintisində "yeyinti" olduğunu etiraf edir**

# Seysmoloq: «Bakıda risk böyükdür»


Tahir Məmmədli

**AzadlıqRadiosunun «İşdən sonra» proqramına qonaq olan Azərbaycan Milli Elmlər Akademiyasının Respublika Seysmoloji Xidmət Mərkəzinin şöbə müdiri Tahir Məmmədli deyir ki, Azərbaycan da Türkiyə kimi seysmik cəhətdən aktiv zonadır. Azərbaycanda da nə vaxtsa zəlzələ ola bilər. Buna baxmayaraq, Türkiyədəki zəlzələ ilə əlaqədar burda da hansısa bir seysmik təkanın baş verməsini söyləmək mümkün deyil. Ancaq Vanda təkanlar hələ bir müddət davam edəcək.**

**«KİM NECƏ TİKİR, DEYƏ BİLMƏRƏM»**

*Seysmoloq Bakı şəhərində tikilən binaların keyfiyyətinə də toxunub. Deyib ki, seysmoloqlar bina tikilməmişdən əvvəl rəy hazırlayırlar:* «Nazirlər Kabinetinin sərəncamı ilə istənilən hündürmərtəbəli, hətta 2-3 mərtəbəli bina tikilərkən bizdən ərazidə maksimum neçə bal gücündə zəlzələ ola biləcəyi haqda rəy alırlar. Bu rəyə uyğun bina tikməlidirlər. Onu yoxlamaq isə bizim sahəmiz deyil. Buna Fövqəladə Hallar Nazirliyinin müvafiq qurumları nəzarət edir. Düşünürəm ki, onlar buna ciddi riayət edirlər. Çünki bura seysmoaktiv ərazidir».

**«BAKIDA 8 BAL GÜCÜNDƏ ZƏLZƏLƏ OLA BİLƏR»**

*Seysmoloq deyir ki, Abşeron zonasında, o cümlədən Bakı şəhərində 12 ballıq şkala ilə 8 bal gücündə zəlzələ ola bilər. Zəlzələ ocaqları Xəzər dənizinin dibindədir deyə, dənizə yaxın ərazilərdə 1 bal artıq hiss oluna bilər. Buna görə də tikilən binalar 8, dənizə yaxın ərazilərdə isə 9 bala dayanıqlı tikilməlidir:* «Bakıda risk böyükdür. Çoxlu köhnə binalar var. İstismar müddəti keçmiş binalar var. Zəlzələ olarsa, onların böyük əksəriyyəti ola bilsin davam gətirmədi».

**SEYSMOLOQLARIN SƏHVİ**

*Tahir Məmmədli seysmoloqların bir səhvi ilə bağlı maraqlı faktı da diqqətə çatdırıb:* «1978-80-ci ilə qədər seysmoloqlar fikirləşirdilər ki, Bakı, Abşeron zonası 6 ballıq zonadır və binalar 6 bala uyğun tikilirdi. 80-ci ildə alimlər hesabladılar ki, səhv etmişik, 7 ballıq zonadır. 91-ci ildə isə dedilər ki, 8 ballıq zonadır. Təsəvvür edin, 91-ci ildən əvvəl tikilən binaların bəziləri 6 bala, bəziləri 7 bala hesablanıb...».

***Şahnaz Bəylərqızı, Kamran Mahmudov***

# Bu qış Bakı necə isinəcək?

**Bir müddət əvvəl Sənaye və Energetika Nazirliyində 10-dan artıq dövlət qurumunun iştirakı ilə «İstilik təchizatı sistemlərinin müasir tələblər əsasında səmərəli inkişafına dair Tədbirlər Planı»nın hazırlanmasına dair geniş müşavirə keçirilib. Amma, hələ ki, bu sahədə konkret bir iş görülməyib. Kommunal məsələlər üzrə ekspert Ələkbər Ağasıyev mənzillərin istilik sistemi ilə təchizatında bu il köklü dəyişikliklər olacağına inanmır. Deyir ki, çünki ötən il üzə çıxan problemlərin əksəriyyəti hələ də həllini tapmayıb.**

**MÜŞFİQABAD GÖZLƏYİR**

Belə getsə bu qış da Bakının Müşfiqabad qəsəbəsində istilik sistemi olmayacaq. Çünki bu qəsəbədə yay aylarından başlanan iş yarımçıq qalıb. Bu səbəbdən sakinlər 10-15 günə mənzillərinin istiliklə təmin olunacağına az ümidlidirlər. Qəsəbə sakini Gülər Əliyeva deyir ki, xətlər binaların zirzəmisinə qədər çəkilib və daha sonra iş dayanıb. Niyə dayanıb, bilən yoxdur.

**-İndi evləri necə isidirsiz?**

- Elektrik plitəsi, bir də qaz peçini yandırırıq.

Gülər Əliyeva deyir ki, otaqları bu yolla isitmə də onlara xeyli baha başa gəlir.

Amma qəsəbədə sakinlər arasında belə söz-söhbət də gəzir ki, iş pula görə yarımçıq qalıb. Sakinlərin iddiasına görə, xətləri binaların zirzəmisinə qədər çəkib gətirən iş icraçıları işin mənzillərdə davam etdirilməsinə görə hər evdən 20-30 manat pul istəyirlər.

**RƏSMİLƏR NİKBİNDİR**

*«Azəristiliktəchizat» ASC-nin abonent və müştəri xidmətlərinin rəisi Rafiq Əliyev isə narahatlığa əsas görmür. Deyir hər halda vəziyyət ötənilkindən xeyli fərqlənəcək:* «Bu il həm keyfiyyət, həm də kəmiyyət baxımından əhalinin, məktəblərin, xəstəxanaların, uşaq bağçalarının istiliklə təminatı xeyli yaxşı olacaq. Ümumilikdə bu il Bakıda 2400 yaşayış binasına istilik veriləcək».

Müşfiqabad qəsəbəsinə gəlincə, Rafiq Əliyev deyir qəsəbə bu qış istiliklə təmin olunacaq. Xidmət rəisi yeni istilik sistemlərinin qurulmasına və bərpasına


Elektrik plitəsi olan bağça

nə qədər vəsait xərcləndiyi barədə məlumatsız olduğunu deyir.

**5 İLDƏ 77 MİLYON MANAT**

2012-ci il büdcə layihəsində ölkə ərazisində istilik sistemi üzrə yaranan zərərin ödənilməsinə, istilik sistemi və su təchizatı obyektlərinin istismarına və təmirinə 31,6 milyon manat vəsait proqnozlaşdırılıb. Ötən il isə bu sahəyə ayrılan vəsait 19 milyon manat olub. Ümumilikdə 2005-2010-cu illərdə isə istilik sisteminə üst-üstə təxminən 77 milyon manat ayrılıb.

İndi Azərbaycanda istilik təchizatından istifadəyə görə 1 kvadratmetr mənzil sahəsi üçün qiymət 5 qəpikdir. Büdcə təşkilatları 1 kvadrata 12, təsərrüfathesablı idarələr isə 22 qəpik ödəyir.

***Maarif Çingizoğlu***

# Taksi sürücüləri niyə narahatdır?

**«Deyirlər lisenziya verilməyəcək. Bizim ailəmiz var axı, neyləməliyik, acından ölməliyik? Milləti fikirləşən yoxdur. Bıçaq sümüyə dirənəndə insan nəyə desən qadirdir». 30 ildən çoxdur ki, qazancı taksidən çıxan 55 yaşlı Əlmurad Günəşoğlu deyir ki, artıq bir həftədir sanki tikan üstə oturub. Uzun illərdir müştəri gözlədiyi yer "Nizami" metrostansiyasının qarşısındakı taksi dayanacağıdır. Amma artıq şəhərin mərkəzi küçələrindəki taksi dayanacaqlarını ələ keçirən yeni London taksilərinin yeli buradan da yan keçməyib. Şəxsi avtomobili ilə xidmət göstərən sürücülərin dediyinə görə, ötən həftədən nəqliyyat müfəttişləri daha tez-tez onlara baş çəkməyə başlayıblar.**

Taksi sürücüsü Abdin Əkbərov:

- «Gəlib sənədləri yoxlayırlar. Maşının sənədlərini istəyirlər vermirik, çünki alırlar qaçıb minirlər maşınlarına, çıxıb gedirlər».

**«SƏNƏDİMİZİ ALIB QAÇIRLAR»**

Abdin Əkbərov deyir ki, müfəttişlikdən bir neçə dəfə fəaliyyətlərini dayandırmaqla bağlı xəbərdarlıq alıblar. Buna məhəl qoymadıqlarına görə indi ya sənədləri əllərindən alınır, ya da fəaliyyətlərini davam etdirə bilmələri üçün onlara lisenziya verilmir: «Deyirlər bazar iqtisadiyyatıdır. Biz də rəqabətə dözmərik, özümüz çıxarıq da. Niyə bizi məcburi sürüyüb atırlar bayıra? Qoy mən gəlim işləyim, maşınıma minən olmasa, çıxım gedim. Bunlar isə deyir ki, ancaq bizimki işləməlidir».

**LONDON TAKSİLƏRİ SƏRF ETMİR**


Sürücü Rail Rəhimov

Taksi sürücülərinin dediyinə görə, onlara bir neçə dəfə təklif olunur ki, Bakıya yeni gətirilən London taksilərində işləsinlər. Hətta bu təkliflə razılaşanlar da olub. Amma sürücü Rail Rəhimovun dediyinə görə, bu sövdələşmə uzun sürməyib:

«Təzə taksilər heç kimə sərf etmir. Tanıdığım bir neçə adam ki, götürüb, sonra qaytarıb. 50 manat planıdır, 10 manat da «salyarka» puludur. Bədbəxt oğlu 60 manatı haradan çıxarsın? Adi Yasamala bir müştərini aparıb gələnədək tıxaclarda 2 saat keçir, aldığın 5 manatı da benzinə verirsən».

**ŞƏHƏRİN MƏRKƏZİNDƏ YALNIZ LONDON TAKSİLƏRİDİR**

Nəqliyyat Nazirliyinin də məlumatına görə, hazırda Bakıda şəxsi avtomobili ilə taksi xidməti göstərənlərin sayı 20 mindən çoxdur. Artıq şəhərin bəzi taksi dayanacaqlarında, məsələn, «Azneft» meydanında, Neftçilər prospektində köhnə taksilər gözə dəymir, ətrafda yalnız London taksiləridir. Sürücülərin dediyinə görə, müfəttişliyin əməkdaşları bu əraziləri nəzarətdə saxlayırlar ki, köhnə taksilər yenidən bu yerlərdə dayanmasınlar.

**«EUROVİSİON»A YENİ TAKSİLƏRLƏ**

Nəqliyyat müfəttişlərinin köhnə taksiləri sıxışdırmasına dair deyilənlərə nazirlikdən mövqe ala bilmədik. Nəqliyyat naziri Ziya Məmmədovun dediyinə görə, Bakıya artıq 500-ə yaxın yeni London taksiləri gətirilib. Gələn ilin mayında Bakıda keçirilməsi nəzərdə tutulan «Eurovision-2012» müsabiqəsinədək bu taksilərin sayının 3000-nə çatdırılması planlaşdırılır. Bu proseslə paralel olaraq paytaxtda həm də köhnə taksilərin yığışdırılması prosesinə başlanıb.

***Ülkər Akifqızı***

# Maşınına "bərkgedən" nömrə alanlar üçün qiymətlər...

**Parlamentdə müzakirə edilən "Dövlət rüsumu haqqında" qanuna təklif olunan dəyişikliklərdə maşınlara "zerkalnı" nömrələrin qiymətləri göstərilib. Əgər bu təklif parlamentdə qəbul edilsə, "bərkgedən" nömrəyə sahib olmaq istəyənlər aşağıdakı qaydada pul ödəməli olacaqlar:**

- Maşının nömrə nişanı 001, 002, 003, 004, 005, 006, 007, 008 və 009 rəqəmləri ilə olduqda müxtəlif hərflərdən ibarət nömrəyə görə 1500 manat, həmin rəqəmlər seriyası eyni hərflərdən ibarət olduqda 2500 manat.
- 100, 200, 300, 400, 500, 600, 700, 800 və 900 rəqəmlərindən və müxtəlif hərflərdən ibarət olduqda 1000 manat, eyni hərf olduqda isə 1500 manat.
- 111, 222, 333, 444, 555, 666, 777, 888 və 999 rəqəmlər ilə müxtəlif hərflərdən ibarət nömrəyə görə 500 manat, eyni hərflər olduqda isə 1000 manat.

Digər dövlət qeydiyyat nişanlarının verilməsinə görə 18 manat məbləğində rüsum nəzərdə tutulub. Amma hələlik bunlar təklifdir, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu, İnsan hüquqları komitələrinin cümə günü keçirilən iclasında müzakirəyə çıxarılıb. Rüsumların bu qaydada hesablanması yalnız Milli Məclis onu təsdiq edəndən sonra başlayacaq.

**SÜRÜCÜLÜK VƏSİQƏSİ 30 DƏQİQƏYƏ?**

Hazırda belə cüt nömrələrə görə dövlət büdcəsinə əlavə rüsum alınmır, amma Bakı sakinləri arasında hər belə cüt nömrənin qeyri-rəsmi ödəniş məbləğləri haqqında müxtəlif məbləğlər səslənir. Hələ Milli Məclisin komissiyalarında olan "Yol hərəkəti qaydalarına" başqa bir dəyişiklik təklifində isə imtahan verildikdən 30 dəqiqə sonra sürücülük vəsiqəsinin verilməsi nəzərdə tutulur. Hazırda bu müddət bir gündür.

# Diktatorların xalqa ata olmaq həvəsi

**Axı Mən Sizin Atanızam...**

Bu iddialı bəyanatı ayaqlar altında tapdalanan yaralı Qəddafi səsləndirirdi. "Siz günah işlədirsiniz, mən sizin atanızam". Ya diktatorlar ölüm ayağında belə camaatı ələ salmaq qabiliyyətlərini qoruyub saxlayırlar, ya da adam doğrudan da dediyinə inanırdı. 1989-da güllələnməyə aparılan Yelena Çauşesku da belə danışırdı: "Nə edirsiniz? Axı siz mənim uşaqlarımsınız." Yəqin ki, səmimi bəyanatlardır. Amma bu bəyanat onu səsləndirən adamın düşüncə tərzi haqqında nələri deyir?

**Kralların Yadigarı**

Ölkə əhalisinə öz uşaqları, daha qədimdə isə öz qulu kimi baxmaq monarxik sistemin doğurduğu düşüncə tərzidir. Kralın mütləq hakimiyyətinin qorunması üçün bu patriarxal düşüncəyə böyük ehtiyac var idi. Cəmiyyəti ailə, kralı ailənin başçısı/atası hesab etməklə ierarxik hakimiyyət sisteminin sabitliyini saxlamaq mümkün olurdu. Yoxsa hər yoldan ötən şahın şahlığını sual altına qoya bilərdi və bütün cəmiyyət daima vətəndaş müharibəsi vəziyyətində yaşamalı olardı.

On yeddinci əsrin ortalarında bu sistemə İngiltərədə ilk etiraz ediləndə kral Çarlz Stüart başa düşə bilmirdi ki, uşaqlar öz atalarının – kralın iradəsini necə sual altına qoya bilərlər. Kralın ordusunu iki dəfə məğlub edən İngiltərə parlamenti ondan sadə bir şey tələb edirdi – kralın səlahiyyətlərini məhdudlaşdıran bir sənədə imza atmaq. Kişini devirmirdilər. Hakimiyyətinin də cüzi bir hissəsini əlindən alırdılar... onu müharibə meydanında tam məğlub edib, ev dustağı edəndən sonra. Təsəvvür edin ki, belə bir vəziyyətdə Çarlz Stüart dirənib güzəştə getmir və 1649-cu ildə onu edam edəsi olurlar.

İndi XXI əsrdir. İnsanlar ümumən anlayırlar ki, bir adamın hakimiyyətə anadangəlmə haqqı uydurma anlayışdır. Amma Səddam Hüseyn onu mühakimə edən hakimin qarşısında durmaqla öz ali vücudunun təhqir olunduğu qənaətində idi.

Çauşesku və Qəddafini də yuxarıda qeyd etdik. Ən qəribəsi budur ki, yüz illərlə nəsli kral olan monarxlardan fərqli olaraq diktatorların əksəriyyəti çox adi bir şəcərədən gəlirlər; əksəriyyəti hakimiyyətə yiyələnməmişdən qabaq ən adi bir adam olublar və deməli anlamalıdırlar ki, hakimiyyət onların ilahi haqqı deyil.


Qəddafi

Anlayırlarmı? Belə görünür ki, anlamırlar. Ölənə qədər anlamırlar.

**Yazının tam mətnini AzadliqRadiosu.az saytının "Bloqlar" bölümündə oxuyun.**

***Qorxmaz Əsgərov***

# Bəxtiyar Hacıyev həbsxanadan yazır



Bəxtiyar Hacıyev AzadlıqRadiosunun studiyasında

**Həbsxanada olan gənc fəal Bəxtiyar Hacıyev hökumətin gənclər siyasətindən bəhs edən fikirlərini jurnalistlərə göndərib:**

Hazırda Prezident Administrasiyası gənclər arasında nüfuz savaşı aparır. Bu savaş əvvəlcə cəmiyyətdə kifayət qədər təhsilli gənci öz ətrafına toplamış AN şəbəkəsinin və yaradıcı yanaşması ilə effektiv fəaliyyət göstərən OL Gənclər hərəkatının rəhbərlərinin 2009-cu ildə həbsi ilə başladı.

Daha sonra Avropada təhsil alan gəncləri özündə birləşdirən FASE-nin neytrallaşdırılması, yeni yaranan FACE qrupuna süni əngəllərlə davam etdi. Administrasiya bir tərəfdə müstəqil, təhsilli gəncləri sıxmaqla yanaşı, digər tərəfdə özünün qurduğu təşkilatları maliyyələşdirməyə, gənclər üçün cazibədar etməyə çalışdı.

2007-ci ildə "Azərbaycan gənclərinin xaricdə təhsili 2007-2015", 2011-ci ildə "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" dövlət proqramları qəbul olundu. Bundan əlavə, gənclərə ipoteka verilməsinin şərtlərinin asanlaşdırılması, gənclər mərkəzlərinin tikilməsi, gənclərlə bağlı tədbirlərin Bakıda keçirilməsi təklif olundu. Lakin bütün bunlara baxmayaraq, Prezident Administrasiyası gənclərin rəğbətini qazanmaq üçün gördükləri işlərdə ciddi nəticə əldə etməyib.

Bunun iki sadə səbəbi var. Birincisi, 2011-ci ildəki Azərbaycan gənci 2005, 2008-ci illərdəki gənc deyil. Bu gün xaricdə təhsil alan, daha çox özünün müstəqil mövqeyini qorumağa, ictimai maraqlara sahib çıxmağa çalışan yeni gənc nəsil yetişib, bu gənclərin sayı sürətlə artır. Həmin gənclərin qəlblərini və beyinlərini pulla, xüsusilə dövlət büdcəsi hesabına fəth etmək olmaz. Dövlət proqramlarından faydalanmaqla yanaşı, bu gənclər çox gözəl anlayırlar ki, bu proqramlar dövlət büdcəsi hesabına reallaşır, bu tədbirləri keçirməyə dövlət borcludur və dövlət büdcəsindən ədalətli, səmərəli istifadə hər bir Azərbaycan gəncinin haqqıdır.

İkincisi, Administrasiya sadə bir həqiqəti anlamır. İstər beynəlxalq aləmdə, istərsə də Azərbaycan gəncləri arasında müsbət bir fikir formalaşdırmağın yeganə yolu var – həqiqətən də müsbət olmaq.

Çox şadam ki, yeni Azərbaycan gəncləri bu iki məsələni çox dəqiq görə bilirlər. Dövlət büdcəsi hesabına həyata keçirilən dövlət proqramlarından bəhrələnməklə yanaşı, hakimiyyət ciddi islahatlar reallaşdırmadan hakimiyyətin dövlət büdcəsi ilə ictimai simpatiya qazanmaq tələsinə düşmürlər.

# Qulu Ağsəs: "AYB-dən yaşı altmışı keçmiş adamlar getməlidir"


Şaiq Vəli

**“Feyziyyə ilə şənbə söhbəti"nin qonağı "Ulduz" jurnalının baş redaktor müavini, şair Qulu Ağsəs AYB ilə bağlı fikirlərini açıqlayıb...**

**- Bəs AYB-də necə, yaxın vaxtlarda nələrinsə dəyişəcəyinə ümidiniz varmı? Çox güman ki, bu qurumda sizi də narahat edən məqamlar var...**

- Orada yaşı altmışı keçmiş adamlar var, onlar getməlidir.

**- Qulu müəllim, hamı bu barədə danışır. Birdən siz də altmış yaşınız olanda AYB-dən getmək istəmədiniz, onda necə?**

- Onda əməliyyata gedəcəm və olacam əlli yaşında (gülür - F). Necə yəni getmək istəməyim, elə şey olar? Mən özümə necə hörmət edərəm ki, mənə gəlib desinlər ki, sən getməlisən. Mənə qalsa, deyərəm qalsınlar, dörd yüz il yaşasınlar. Qoy AYO-çular ölsün, onların uşaqları desin “get”, yenə getməsinlər. Gənc Ədiblər qırılsınlar, amma onlar yenə qalsın. (gülür - F). Düşünürəm ki, onların ədəbiyyat naminə etdikləri nəzərə alınmalıdır, ömürlük Prezident təqaüdü ilə təmin olunmalıdırlar. Və bu qurultayda struktur dəyişikliyi onların getməsi ilə başlanmalıdır. Onların yerinə isə hər şeir yazanı küçədən tutub gətirmək olmaz. Mənə elə gəlir ki Anar müəllim namizədliyini irəli sürsə, yenə də qalib gələcək. Çünki o, çox güclü fiqurdur.

**- Qalib gələcək, yoxsa?..**

- Bəli, məhz qalib gələcək. Insanlarda ötən seçkidən bir qorxu qalıb. Rəhmətlik Akif Səməd namizədliyini irəli sürəndə iki, ya da bir səs yığdı. O adamlar ki, rəhmətliyi dəstəkləyəcəklərinə söz vermişdilər, Anarı görən kimi fikirlərindən daşınmışdılar. Mən rəhmətliyə dedim ki, bunlar səni aldadırlar. Indi hamı qorxur ki, namizədliyimi verərəm, heç kim səs verməz. Düşünürəm ki, Anar seçilsə belə, islahatlar olmalıdır, bir də bu AYB, AYO məsələsinə son qoyulmalıdır. Bunun da bir yolu odur ki, onları çap etmək lazımdır. Bir yaxınlaşma olsun.

# Ölümündən sonra ən çox qazanan məşhurlar


Michael Jackson

**"Forbes" jurnalı ölümündən sonra irsi ən çox gəlir gətirən məşhurların reytinqini tərtib edib. Keçən il olduğu kimi, bu il də siyahıya pop kralı Michael Jackson başçılıq edir. Keçən ilin oktyabrından bəri pop kralının albomlarının satışı və onun həyatının son aylarını əks etdirən kadrların da yer aldığı "This is it" sənədli filmi ümumilikdə 170 milyon dollar gəlir gətirib.**

İkinci pillədə rok kralı Elvis Presli qərarlaşıb. Onun albomları və iştirak etdiyi başqa materiallar varislərinə 55 milyon dollar qazandırıb. 3-cü yerin sahibi - Amerika kinosunun əfsanəsi Merilin Monrodur (27 milyon dollar). Siyahıda əfsanəvi "Beatles" qrupunun iki üzvü də var: Corc Lenon (5-ci yer - 12 milyon dollar) və Corc Harrison (13-cü yer - 6 milyon dollar). Corc Lennon 5-ci yeri Hollivud ulduzu Elizabet Teylorla bölüşür (12 milyon dollar).

Siyahıya müğənni və aktyorlarla yanaşı elm xadimləri də "düşə bilib". Dahi Albert Eynşteyn 7-ci pillədə (10 milyon) qərarlaşıb. İsveçli detektiv yazarı Stiq Larsson isə 9-cudur (7 milyon dollar)...

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



Rasim Balayev: **«Biz adamları kinoteatrdan qaçırtdıq»**


**Pərviz yazdığı yeni romandan imtina etdi**


Seymur Baycan: **İvan İliçin ölümü**


Aqşin Yenisey: **"İçkidən dopinq kimi istifadə edirəm" "Yazı masası" rubrikası (VİDEO)**


**İrlandiyanın yeni seçilən prezidenti şairdir**

# Azərbaycanda halal zəmanəti necə və kimlərə verilir?..



**Azərbaycan da daxil olmaqla bir çox ölkələrdə yalnız halal qida yemək istəyən insanlar var. Bu cür insanların hüquqları necə qorunur? Onların aldanma ehtimalı nə yerdədir? Bu sahəyə nəzarət hansı səviyyədədir? Halal əvəzinə haram alan istehlakçı məhkəməyə üz tuta bilərmi? "İslam və demokratiya" verilişində bu dəfə dini inancına görə qida seçən insanların hüquqlarından danışılıb.**

### HEYVANIN 4 DAMARINI KƏSMƏK LAZIMDIR

*Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) şöbə müdiri, Qazi Hacı Mirəziz Seyidzadə deyir ki, halal qida hazırlamağın bir çox şərti var. Söhbət ət məhsullarından gedirsə, heyvanın kəsilmə qaydalarına xüsusi diqqət yetirilməlidir:*"Gərək heyvanı kəsən şəxs müsəlman olsun, onu üzü qibləyə çevirib kəssin. Heyvanın boğazında 4 damar, özü də dəmirlə kəsilməlidir. Bu qaydalarla kəsilən heyvanın ətinə təbii ki, donuz əti və piyi qatmaq olmaz".

### ANCAQ 2 ŞİRKƏTƏ HALAL ZƏMANƏTİ VERİLİB

QMİ bu sahədə yalnız 2 şirkətə - "Sab" firması və Gəncədəki "Halal qida" şirkətinə halallıq zəmanəti verib. İdarənin yaratdığı komissiya üzvləri 1-2 aydan bir həmin şirkətlərdə vəziyyəti yoxlayır, orda hazırlanan məhsulları mütəmadi olaraq laborator analizdən keçirirlər. "Bu şirkətlər müsəlman ölkələrindən alınan ətlərdən məhsul hazırlayırlar. Yəni ətin halal qaydada kəsildiyinə zəmanət var. Elə iş görmək istəyirik ki, aldanmayaq və insanları da aldatmayaq. Yoxsa Qiyamət günündə buna görə cavab verməli olacağıq".

### HALAL-HARAM MƏSƏLƏSİNƏ DİNİ İDARƏ BAXIR

*Halallıq zəmanətini QMİ-nin verməsinə gəlincə, Hacı Mirəziz bunu daha məntiqli sayır. Onun fikrincə, dinin dövlətdən ayrı olduğu Azərbaycanda bu işi məhz dini qurum həyata keçirməlidir:*"Halal-haram işinə dini idarə baxır. Dövlət haram-halal işinə baxacaqdısa, gərək dövlət idarəsi ruhaniyyətdə olardı. Bu işə məsul olan dövlət idarələri yalnız tibbi tərəfinə nəzarət edə bilər".

### AZƏRBAYCAN BEYNƏLXALQ STANDARTI GÖZLƏYİR

*"Nəinki Azərbaycanda, ümumiyyətlə, hələlik Halal adında beynəlxalq standart da yoxdur". Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin mətbuat katibi Fazil Talıbov belə deyir. Onun sözlərinə görə, Azərbaycan halal standartı tətbiq etmək üçün İslam Konfransı Təşkilatının (İKT) qərarını gözləyir:*

"İKT-də halal standart layihəsi hazırdır. Burda yalnız bir mübahisəli məsələ qalıb – heyvanları elektrik cərəyanı vasitəsilə, yoxsa əllə kəsmək? Bu məsələ İKT-yə üzv ölkələr yekdil qərara gələ bilmirlər. Layihəyə heyvanın kəsilməzdən öncə ona verilən qidalarla əlaqəli tələblərdən tutmuş, kəsən şəxsin, alətin, müəssisənin təmizliyinə qədər, hətta hansı avtomobildə daşınması və vitrinə qoyulana qədər bütün proses əhatə olunub".

### HALAL MƏHSUL "BLEF"DƏN BAŞQA BİR ŞEY DEYİL

Halal standartı ilə bağlı heç bir texniki şərt, reqlament bəlli olmadığına görə, Komitə bu sahəyə nəzarət etmir."Biz mövcud digər standartlar, ərzağın təhlükəsizliyi ilə bağlı yoxlama keçirir və Halal deyilən məhsul "blef"dən başqa bir şey deyil. Axı hansısa kolbasaya donuz əti vurulmaması o demək deyil ki, o kolbasa halaldır. Kim zəmanət verir ki, Braziliyadan, ya da Hindistandan gətirilən dondurulmuş camış ətləri halallıqla kəsilib?"

### DİNİ ORQANIN STANDART VERMƏSİ QANUNİ DEYİL

*Azad İstehlakçı Hüquqları Birliyinin sədri Eyyub Hüseynov isə indi yalnız Azərbaycanda deyil, bütün dünyada halal məhsullarla bağlı istehlakçıların aldanması prosesinin getdiyini deyir:* "Ən qatı xristian ölkələrində, Cənubi Afrikanın xristian hissəsində, hətta Ermənistanda da halal mal nişanı ilə məhsul satılır. Azərbaycanda "Halal" mal nişanı ilə 20-yə yaxın mallar var. Bu bazarın belə geniş spektrdə olması və izlənmə prosesinin olmaması dindar istehlakçıların aldadılması ilə nəticələnir".

*E.Hüseynov hesab edir ki, halal standartını HASSP sisteminin üzərində qurmaq olar. Bu, malın ekoloji təmizliyini izləyən bir sistemdir:* "Əgər bura halal izləmə sistemi də əlavə olunsa, onda natural halal məhsul bazara çıxarmaq mümkün ola bilər".

AİB sədri deyir ki, halal adı altında haram mal aldığını sübut etmək və məhkəməyə müraciət etmək istəyən şəxslər onların yardımından istifadə edə bilər. Amma hələlik sırf bu məsələ ilə bağlı məhkəməyə müraciət edən olmayıb.

***Fərəh Sabirqızı***


**AzadliqRadiosu.az saytında daimi rubrika:**




**AzadliqRadiosu.az saytının "İslam və demokratiya" rubrikasında həmçinin oxuyun:**

- **Qurban kəsmək qaydaları**
- **Qəddafinin dəfni İslama uyğun idimi?**
- **Azərbaycanlı zəvvarların ziyarəti başlayıb**
- **Məscid və dövlət**
- **Buzdan məscid tikiləcək**
- **Həccə buraxmadılar, 75 min dollar kompensasiya aldı**

# 11 dildə danışan Cavid...


Cavid Məmmədov

**25 yaşlı maliyyəçi Cavid Məmmədovun bildiyi xarici dillərin sayı onu keçir. O, 5 ildir ki, ispan, italyan, portuqal, alman, fransız, türk, serb, esperanto dillərinə hakim olub. Azərbaycan dilini isə 14 yaşında öyrənməyə başlayıb. Cavid Məmmədov "14-24" verilişinə müsahibəsində deyib:**

- Tətil vaxtı idi, bekarçılıq idi, görməyə bir iş yox idi, mənim bir dostum bir saytın adını çəkmişdi və mən o sayta girib gördüm ki, bu, Moskvada yerləşən dillər məktəbinin saytıdır. Burada xarici dilləri öyrənənlər üçün hər cür məlumat var, pulsuzdur və onları yükləmək olar. 20 yaşım vardı o vaxt, bu, təqribən 5 il bundan qabaq baş vermişdi. Mən başladım ispan dilindən. Çünki o vaxta qədər bir kitab almışdım və dili bir balaca bilirdim. İspan dilini bir az oxudum, nə qədərsə öyrəndim, dedim ki, ispan dilinə oxşar portuqal dili də var, açım onu oxuyum. Ondan sonra italyan dilinə keçdim. Sonra bütün dilləri az-maz artıq bilirdim.

**- Heç bir hazırlığa getməmisiz bu dilləri öyrənmək üçün?**

- Faktiki olaraq getməmişəm. Nəzərə alsaq ki, bir çox insan heç bir hazırlığa getmədən dilin yaxşı səviyyəyə çatdırılmasına inanmır, mən qərara gəldim ki, ispan dilindən ingilis dilindəki TOEFL testinə uyğun imtahanı verim. Düzdür, bunun heç bir maliyyə, iqtisadi nəticəsi yox idi. Ən yüksək səviyyəni seçdim və imtahandan keçdim.

***Durna Səfərli***

# Avropada Yunanıstan lətifələri

Avrozona liderləri Yunanıstanı və bununla da avronu xilas etdilər. Yunanıstanın borcunun 50 faizi bağışlandı. Son aylar dillərdən düşməyən bu borc problemini "Reuters" orijinal şəkildə işıqlandırmaq qərarına gəlib.

"Reuters" Avropa ölkələrindəki müxbirlərinə tapşırıb ki, o olkələrin mediasında bu mövzuda hansı lətifələr dolaşır? Agentliyin müxtəlif ölkələrdən topladığı lətifələri diqqətinizə təqdim edirik.

**YUNANISTAN İŞGÜZARLIĞI**

**- Yunanıstan niyə Beynəlxalq Valyuta Fondundan son transşı, pulu ala bilmədi?**

- Çünki bunun üçün ərizə formasını doldurmaq lazımdır, Yunanıstanda heç kim bu qədər çox işləyə bilmir.

**"HAMAMPULUNU" KİM VERƏCƏK?**

Yunan, irlandiylı və portuqaliyalı bara gedib içki sifariş verirlər. Barmen soruşur ki, pulunu kim verəcək? Cavab verirlər ki - alman.

**TAKSİPULU**

"Avropa liderlərinin iclasından sonra İtaliyanın baş naziri Berluskoni adəti üzrə gecə klubuna tələsir. Berluskoni o biri Avropa liderlərini də dəvət edir.

Yunanıstanın baş naziri Papandreu imtina edir. Berluskoni deyir ki, "içki pulunu mən verəcəm, gedək." Papandreu cavab verir ki, bəs geri qayıtmağa taksipulunu?"

***Elxan Nəsibli***

# AzadlıqRadiosunda verilişlər:

_Unutmayın:_ Siz bu verilişləri canlı dinləyə bilmirsinizsə, istənilən vaxt AzadliqRadiosu.az saytında onların səs yazılışlarına qulaq asa bilərsiniz. Bu, elə də çətin deyil.

**İşdən sonra**
**Can Bakı**
**Xüsusi reportaj**
**Qaynar xətt**
**Həmyerli**
**Tanınmışlar**
**Şəffaflıq**
**14-24**
**İz**
**Panorama**
**Qafqaz Qovşağı**
**Oxu zalı**
**Hər kəsin haqqı var**
**Təbriz Ekspress**

## Daimi rubrikalar












# Simsiz teleqraf

## Bakıda analoqu olmayan keçid



Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,

**Xaricdən:** (+420) 602 517 052

**Görüntüləri elektron poçtla da yollamaq olar:**

efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

24 saat

necə dinləməli...

HotBird 13°E

Kanalın adı
Radio Free Europe/Radio Liberty
Pol: V
Tezlik: 12.226 Ghz
Sürət: 27.500 MS/s

TÜRKSAT 42° E

Kanalın adı
Azadliq VOA Azeri
Pol: H
Tezlik: 11.862 Ghz
Sürət: 27.500 MS/s

## Mobil telefonda canlı

Yeni




## Yeni veriliş: AzadlıqFM

Yeni




## Verilişlərin vaxtı:

| | |
|---|---|
| Səhər proqramı | $08^{00}$-$10^{00}$ |
| Günorta proqramı | $12^{00}$-$13^{00}$ |
| Təkrarlar | $15^{00}$-$16^{00}$ |
| İşdən sonra | $17^{00}$-$19^{00}$ |
| Kontekst | $20^{00}$-$21^{00}$ |
| Gecə proqramı | $22^{00}$-$24^{00}$ |

## Bizimlə əlaqə:

**E-mail:** efir@AzadliqRadiosu.az

**Qaynar Xətt:** **436-77-41**

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30


Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**"Fərqli düşüncə" jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, "Qanun" mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tblisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email:fdjurnal@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz